AZƏRBAYCAN

8 avqust 2024-cü il



# Gələcəyə qayğı

## COP29 Azərbaycanın "yaşıl dünya" həmrəyliyinə dünya ölkələrinin qoşulması üçün yeni yollar açacaq

"İqlim dəyişiklikləri, atmosferin çirkləndirilməsi, müharibələr və münaqişələr dünya əhalisini bir çox çətinliklərlə qarşılaşdırır. Bu məsələlər maddi və mənəvi cəhətdən ciddi problemlər yaradır. Məhz buna görə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransını bəşəri əhəmiyyətə malik tədbir adlandırırlar".



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, bu sahədə göstərilən hər bir təşəbbüs təqdirəlayiqdir. Azərbaycan da belə tədbirlərin əsas təşkilatçılarından və təbliğatçılarından biri sayılır. COP29-un ölkəmizdə keçirilməsi bu təşəbbüskarlığın göstəricisi olmaqla bərabər, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun ifadəsi kimi qiymətləndirilməlidir. "Son illərdə ölkəmizin ən mötəbər tədbirlərə evsahibliyi etməsi, onların yüksək səviyyədə təşkili və keçirilməsi Azərbaycanın iqtisadi potensialından, Prezident İlham Əliyevin bəşəri dəyərlərə sadiqliyindən irəli gəldiyi kimi, həm də böyük dövlətlərin, beynəlxalq təşkilatların ölkəmizə diqqətini özündə əks etdirir. 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edən Azərbaycanın iqlim dəyişikliklərinin yaratdığı çətinlikləri aradan qaldırmaq, alternativ enerji mənbələri axtarmaq, təbiəti qorumaq, yaşıllıqları genişləndirmək sahəsində gördüyü işlər çox əhəmiyyətlidir. Bu tədbirlər COP29-un keçiriləcəyi ərəfədə daha da genişləndirilir. Çünki bu çox məsuliyyətli və şərəfli vəzifə insanlara, gələcəyə qayğıdır", - deyə o bildirib.

T.Rzayev qeyd edib ki, Azərbaycanın dünyaya bir daha tanıdılması, həqiqətlərimizin təsdiqi həyata keçirilən möhtəşəm işlərin nəticəsidir. 70 mindən çox iştirakçının - dövlət rəhbərlərinin, alimlərin, mütəxəssislərin iştirakı ilə baş tutacaq COP29 Azərbaycan tarixinin unudulmaz səhifəsi kimi yadda qalacaq. Xarici qonaqlar Azərbaycanla, respublikamızın görməli yerləri, eyni zamanda Qarabağ və Şərqi Zəngəzurla tanış olacaq, erməni faşistlərinin törətdikləri vəhşilikləri öz gözləri ilə görəcək, regionlarda aparılan möhtəşəm tikinti-abadlıq işlərinin şahidinə çevriləcəklər. Onlara həm də Azərbaycanın "yaşıl enerji" potensialı, dövlətimizin Avropanın enerji təhlükəsizliyində oynadığı rol barədə geniş məlumat veriləcək.

Azərbaycanın böyük alternativ enerji potensialına malik olduğunu vurğulayan deputat xatırladıb ki, təkcə Qarabağ və Şərqi Zəngəzurda 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialı var: "Bunlar "yaşıl enerji" mənbələridir. Digər regionlarımızda da alternativ enerji mənbələri mövcuddur. Onların istifadəsi üçün lazımi işlər görülür. Dünyanı azad, insanları xoşbəxt və təbiəti sağlam görmək Azərbaycan dövlətinin amalıdır. COP29 da bu məqsədə xidmət edir".

Komitə sədri yekunda bildirib ki, COP29 Azərbaycanın bəşəri amallarını əks etdirməklə, "yaşıl dünya" həmrəyliyinə dünya ölkələrinin qoşulması üçün yeni yollar açacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***